*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 iyun 2017-ci il № 45 (2162) Qiyməti 25 qəpik


*15 İyun - Milli Qurtuluş Günüdür*

## Müstəqilliyimizin qorunub saxlanması Ulu Öndərin adı ilə bağlıdır

*Dünyanın inkişaf etmiş dövlətlərinin tarixi təcrübəsi də sübut edir ki, hər bir xalqın, millətin tərəqqisində onun siyasi liderləri mühüm rol oynayır. Yəni, tarixi proseslərdə şəxsiyyətlərin xidmətləri böyük əhəmiyyət kəsb edir və buna görə də "Şəxsiyyətlər tarix yaradır" ifadəsi əbəs yerə deyilmir.*

Ümummilli lider Heydər Əliyev:

*Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm.*



Tarix 20-ci əsrdə Azərbaycan xalqına Heydər Əliyevin timsalında, doğrudan da, dahi bir rəhbər və müdrik dövlət xadimini bəxş etdi. Ölkəmiz 1991-ci ildə yenidən müstəqilliyini bərpa edəndə Azərbaycanda, sözün həqiqi mənasında, belə güclü liderə ehtiyac yaranmışdı. Gənc müstəqil dövləti daxili və xarici qüvvələrin təhdidlərindən qorumaq və qısa vaxtda dövlətçiliyin dayaqlarını möhkəmləndirmək üçün xalqımız 1993-cü ildə haqlı olaraq müdrik dövlət xadiminə üz tutdu və onun timsalında həqiqi xilaskarını tapdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasında çalışan Ulu Öndər yaxşı bilirdi ki, onun Azərbaycan rəhbərliyinə qayıdışını istəməyən böyük qüvvələr var. Hətta onun fiziki məhv edilməsi də reallıq idi. Amma Heydər Əliyev bu təhlükələrə baxmadan xalqına dar gündə kömək etmək qərarına gəldi və tərəddüd etmədən 1993-cü ilin iyununda Bakıya qayıtdı. Axı yaxşı bilirdi ki, milyonlarla insanın ümidli baxışları ona dikilib və müstəqilliyini qurbanlar hesabına qazanan bir xalq dövlətçiliyin sükanı arxasında məhz Heydər Əliyev kimi təcrübəli və qətiyyətli siyasi lideri görmək arzusundadır.

"Mən ömrümün qalan hissəsini də bundan sonra xalqıma həsr edəcəyəm" deyən dahi rəhbər siyasi hakimiyyətə qayıdışından dərhal sonra müstəqilliyimizin qorunub möhkəmləndirilməsi üçün ən vacib tədbirlərə əl atdı. Mühüm siyasi-iqtisadi islahatlara başlandı və müstəqil dövlətçiliyin inkişafına maneə törədən daxili və xarici qüvvələrə qarşı kəskin mübarizə aparıldı. Çünki cəmiyyəti sağlam qüvvələr hesabına möhkəmləndirmədən islahatları həyata keçirmək mümkün deyildi. 1994-1995-ci illərdə baş verən dövlət çevrilişi cəhdlərinin qətiyyətlə dəf edilməsi bir həqiqəti sübuta yetirdi ki, Azərbaycan xalqı öz siyasi liderinin ətrafında sıx birləşib. Ziyalılar, sənət adamları, təsərrüfat işçiləri, sadə insanlar, bir sözlə, hamı Heydər Əliyev dühasına inandı və ümid etdi ki, yalnız belə bir təcrübəli dövlət xadimi müstəqil Azərbaycanı gözlənə bilən bütün təhlükələrdən xilas etməyə qadirdir.

"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanması, daimi və əbədi olması bundan da çətindir" fikrini söyləyən dahi rəhbər, əslində, hələ ötən əsrin 70-80-ci illərində, Azərbaycan Sovetlər birliyinin tərkibində olduğu bir zamanda xalqımızın böyük gələcəyinə hesablanmış islahatlara imza atmışdı. Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan indiki Hərbi liseyin məhz həmin dövrdə yaradılması Heydər Əliyevin müdrikliyindən və uzaqgörənliyindən xəbər verdi. Belə bir təhsil müəssisəsinin Azərbaycanda yaradılmasına nail olmaq hər rəhbərə nəsib olan iş deyildi. Yalnız qətiyyətli, riskli addım atmağı bacaran, ən başlıcası xalqı üçün ömrünü şam kimi əridən bir rəhbər belə vacib vəzifənin öhdəsindən gəlməyi bacarardı. Müasir Azərbaycan Ordusunun formalaşmasında, milli zabit kadrların hazırlanmasında həmin təhsil müəssisəsinin müstəsna rolu vardır.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı, həqiqətən də, çox mürəkkəb, çətin bir şəraitə təsadüf etdi. Yəni, həmin dönəmdə müstəqil dövlətçiliyimiz həlledici bir dövrünü yaşayırdı. Amma müdrik rəhbərin vaxtında həyata keçirdiyi strateji inkişaf strategiyası müstəqil dövlətçiliyimizin qorunub möhkəmlənməsində müstəsna rol oynadı. Və bu strateji xəttin əsas istiqamətlərindən biri də vahid komandanlıqdan idarə edilən nizami ordunun yaradılması idi. Axı müstəqilliyimizin ilk illərində Azərbaycan qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı, Dağlıq Qarabağ və ona bitişik ərazilər işğal edilmişdi. Belə çətin şəraitdə, döyüşlər getdiyi bir vaxtda nizami ordunun yaradılması olduqca çətin idi. Amma uzaqgörən siyasətçi çox qısa vaxt ərzində bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacardı. Bu gün fəxrlə deyirik ki, müasir müstəqil Azərbaycan, həmçinin Silahlı Qüvvələrimiz ulu öndər Heydər Əliyev dühasının, onun misilsiz xidmətlərinin bəhrəsidir.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycanın Müdafiə naziri Türkiyə Quru Qoşunları komandanı ilə görüşüb

*İyunun 12-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Quru Qoşunları komandanı ordu generalı Salih Zeki Çolak ilə görüşüb.*



Qonaqları salamlayan general-polkovnik Zakir Həsənov ölkələrimiz arasında hərbi əməkdaşlığın ikitərəfli və NATO çərçivəsində aparıldığını, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin genişlənərək inkişaf etdiyini xüsusi vurğulayıb.

Azərbaycana növbəti dəfə səfərindən məmnunluq hissi ilə danışan ordu generalı S.Çolak Naxçıvanda keçirilən birgə taktiki təlimlərin əhəmiyyətini qeyd edərək dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq ənənələrinə əsaslandığını və Azərbaycanın Türkiyənin vacib tərəfdaşı olduğunu bildirib.

Sonra regiondakı hərbi-siyasi vəziyyət, Azərbaycan ilə Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin inkişaf perspektivləri, eləcə də təcrübə mübadiləsi məqsədilə mütəxəssis heyətlərinin qarşılıqlı səfərlərinin təşkili, müxtəlif qoşun növlərinin iştirakı ilə hər iki ölkədə hərbi təlimlərin keçirilməsi və digər maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda iki ölkə arasında hərbi əməkdaşlığın möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə Türkiyə Respublikası Quru Qoşunları komandanı ordu generalı S.Çolak Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto gizir Elmar ZEYNALOVUNDUR**

# Müdafiə naziri Türkiyə Silahlı Qüvvələrinin Tibb Xidməti rəisi ilə görüşüb

*İyunun 13-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Tibb Xidməti rəisi kontr-admiral Hayati Bilgiçlə görüşüb.*



Müdafiə naziri ikitərəfli əlaqələrin möhkəmlənməsi, qarşılıqlı əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi və təcrübə mübadiləsinin vacibliyini vurğulayaraq, Türkiyə ilə hərbi tibb sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Ölkəmizə səfərindən şərəf duyduğunu bildirən kontr-admiral H.Bilgiç dövlətlərimiz arasında bütün istiqamətlərdə olduğu kimi, hərbi tibb sahəsində də əməkdaşlığın yüksək səviyyədə qurulduğunu və daim inkişaf etdiyini vurğulayıb.

Sonra tərəflər Azərbaycan və Türkiyənin hərbi təbabət sahəsində inkişaf perspektivləri, təcrübə mübadiləsi məqsədilə tibb mütəxəssislərinin qarşılıqlı səfərlərinin və müxtəlif kursların təşkili, hərbi həkimlərin hazırlanmasında Türkiyənin imkanları və ümumi maraq kəsb edən digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto gizir Elmar ZEYNALOVUNDUR**

# Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlılarının birgə təlimi davam edir

Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin əldə etdikləri razılığa əsasən üç ölkənin xüsusi təyinatlı qüvvələrinin "Qafqaz Qartalı" birgə təlimi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin kontingentinin də iştirak etdiyi təlim iyunun 14-dək davam edəcək.

# Müstəqilliyimizin qorunub saxlanması Ulu Öndərin adı ilə bağlıdır

(Əvvəli 1-ci səhifədə)

1993-cü ilin 15 iyun günü tariximizdə Milli Qurtuluş Günü kimi qeyd olunur. Məhz həmin gün ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qədəm qoyan Ulu Öndərimiz öz qayıdışı ilə qurtuluşa nail oldu, Azərbaycan xalqına müasir müstəqil dövlətçiliyimizi yadigar qoydu. Zəngin idarəçilik bacarığı olan dahi dövlət xadimi ölkəmizin bütün sahələrinin inkişaf etdirilməsinə nail oldu, siyasi-iqtisadi münasibətlər sistemində müasir inkişafın bünövrəsini yaratdı. 1994-cü ilin sentyabrında inkişaf etmiş dövlətlərin aparıcı şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan neft kontraktı imzalandı. Bu hadisə təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət kəsb edən mühüm hadisə idi. Belə mühüm müqavilənin imzalanması bir tərəfdən ölkədə yaranmış uzunmüddətli ictimai-siyasi sabitliyin göstəricisi idisə, digər tərəfdən beynəlxalq aləmdə müstəqil dövlətimizin artan nüfuzu demək idi.

Ümummilli Liderin önəm verdiyi bütün məsələlər yalnız bir məqsədə - gənc müstəqil dövlətin hərtərəfli inkişafının təmin edilməsinə hesablanmışdı. Azərbaycanda elə bir sahə yox idi ki, diqqətdən kənar qalsın. Aparılan bütün islahatlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı. Xalqımız öz dahi rəhbərinin ətrafında sıx birləşməklə möhkəm iradə nümayiş etdirdi və bütün sınaqlardan üzüağ çıxmağı bacardı.

Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün Ulu Öndərin siyasi kursu onun layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Ən başlıcası Heydər Əliyev irsi, dahi rəhbərin ölməz ideyaları insanların şüuruna möhkəm həkk edilib. Bu gün hər birimiz yaxşı bilirik ki, Ulu Öndərimizin ideyalarına sadiq olmaqla müstəqilliyimizin daha da möhkəmlənməsinə dəyərli töhfəmizi əsirgəmirik. Azərbaycan bütün sahələrdə inkişaf edir, beynəlxalq layihələrin iştirakçısıdır, möhkəm siyasi və hüquqi dövlətçilik strategiyasına malikdir.

2016-cı ilin aprelin əvvəllərində düşmənin cəbhə xəttindəki təxribatlarının qarşısının alınmasında, bir neçə vacib yüksəkliyin işğaldan azad edilməsində Azərbaycan Ordusunun imza atdığı qəhrəmanlıq nümunəsi də məhz əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu strategiyasının müasir dövrdə uğurla inkişaf etdirildiyini sübuta yetirdi. Bu gün Silahlı Qüvvələrimiz döyüş və mənəvi-psixoloji sahədə böyük uğurlara imza atmaqla, müntəzəm keçirilən genişmiqyaslı təlimlərdə qüdrətini gücləndirməklə regionun ən etibarlı hərbi qüvvəsinə çevrilib.

Dahi rəhbərin sönməz ideyaları daim qəlbimizdə yaşayır və yaşayacaqdır. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun sözləri ilə desək, Ulu Öndərimiz ömür yolu hərbi qulluqçularımız üçün Vətənə layiqli xidmət nümunəsi, əsl həyat örnəyidir.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan ordusu"**

# Naxçıvanda keçirilən birgə taktiki təlim davam edir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin iyunun 12-də Naxçıvanda başlayan birgə taktiki təlimləri davam edir.

Əlahiddə Ümumqoşun Ordunun, müxtəlif güc strukturlarının və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri təlimin ssenarisinə əsasən. "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb.

Birləşmə və hissələr döyüşə hazırolma planlarına uyğun olaraq fəaliyyət göstərib, bölmələrin tam döyüşə hazırolma vəziyyətinə gətirilməsi üçün müvafiq tədbirlər görülüb.



5000 nəfərədək şəxsi heyətin, 250-dən artıq döyüş və müxtəlif təyinatlı texnikaların cəlb olunduğu təlim iyunun 16-dək davam edəcək.

*“Ən yaxşı artilleriya divizionu”*

# “Mərmilərin heç biri hədəflərdən yayınmadı”

*Tarix boyu hərbi əməliyyatlarda artilleriya divizionları böyük rol oynayıb. Digər qoşun növlərindən arxada mövqe tutan artilleriyaçılar düşmənə ağır zərbə endiriblər. Bu gün də Silahlı Qüvvələrimizdə artilleriyaçılar üzərlərinə düşən böyük və məsuliyyətli tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirirlər. Fərəhlə qeyd etmək lazımdır ki, ordumuzda kifayət qədər savadlı və bacarıqlı artilleriyaçılar xidmət edirlər. Mütəmadi olaraq keçirilən irimiqyaslı təlimlərdə artilleriya bölmələri də daim yüksək nəticələr göstərir. Bu yaxınlarda baş tutan təlimdə bunun bir daha şahidi olduq.*





"Həyəcan" siqnalı ilə qaldırılan şəxsi heyət təyin edilmiş rayona çıxarılıb. Cəmləşmə rayonunda yerləşdikdən sonra bölmələr ixtisas üzrə praktik məşğələdə iştirak edib və artilleriya qoşunlarında silahlanmaya qəbul edilmiş müasir texnika və vasitələr barədə təlimatçı zabitlər məlumat veriblər.

Artilleriyaçılar yuxarı komandanlığın tapşırığına əsasən, müxtəlif döyüş tapşırıqlarını icra ediblər. Təlimin sonuna doğru hər bir divizion artilleriya silahlarından döyüş atışlarını yerinə yetirib. Müxtəlif məsafələrdə hərəkət edən və hərəkətsiz hədəflərin məhv edilməsi üçün döyüş mərmilərindən istifadə edilib ki, bu da topçuların praktik vərdişlərinin möhkəmləndirilməsi istiqamətində növbəti addım olub.

Təlimin yekununda "N" hərbi hissəsinin divizionu birləşmənin ən yaxşı artilleriya divizionu adına layiq görülüb. Onu da qeyd edək ki, təlimə cəlb olunmuş bölmələrin hamısı yüksək döyüş hazırlığı nümayiş etdirib.

Bölmələrin döyüş hazırlığı sahəsində əldə etdiyi uğurlar tək bir adamın deyil, bütün kollektivin zəhməti ilə qazanılıb.

Biz də təlimdə fərqlənən şəxsi heyətlə görüşmək üçün "N" hərbi hissəsinə gəldik. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit polkovnik-leytenant İsmiyət Kərimovla görüşdük. Zabit hərbi hissənin təlimdə qazandığı nailiyyətlərdən ağızdolusu danışdı.

- "Təlimdə tər - döyüşdə zəfər". Bu hikmətli, dəyərli sözlər dəfələrlə tarixin sınaqlarından çıxıb, - deyə zabit sözə başladı. - Hərbi hissəmizin şəxsi heyəti keçirilən irimiqyaslı təlimlərdə fəal iştirak etdi. Topçularımız hədəfləri dəqiq və vaxtında vuraraq, müsbət nəticələr göstərdilər. Təbiidir ki, qazanılan uğurlar bizi arxayınlaşdıra bilməz. Zabit və əsgərlərimiz daim bilik və bacarıqlarını artırırlar. Əminəm ki, bu təlimlərin nəticəsi də gələcəkdə döyüş meydanında öz sözünü deyəcəkdir.

Zabitlə söhbətləşdikdən sonra təlimdə fərqlənən heyətlə tanış olmaq üçün divizionun yerləşdiyi əraziyə gedirik. Burada divizionun cavabdeh zabiti ilə görüşüb, həmsöhbət oluruq.

- Dövlətimizin ordu quruculuğuna diqqət və qayğısını bütövlükdə Silahlı Qüvvələrdə olduğu kimi, artilleriya qoşunlarında da hər gün hiss edirik, - mayor Qiyas Səfərov deyir. - Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı tədbirləri kompleks şəkildə yerinə yetirilir. Və bu tədbirlərin nəticəsində keçirilən döyüş atışlı taktiki təlimlər həm artilleriyaçıların nəyə nail olduqlarını nümayiş etdirir, həm də onların praktik vərdişlərinin möhkəmləndirilməsində mühüm rol oynayır. Hazırda bölmələrimiz ən müasir artilleriya silahları və digər ləvazimatlarla tam təchiz edilib. Bu, qarşımıza qoyulan bütün tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir.

Təlimdə fərqlənən top heyəti ilə tanış olmaq üçün parka daxil olduq. Bir neçə gün çöl şəraitində yaşasalar da, heç kəsin üz-gözündə yorğunluq hiss olunmurdu. Əksinə, üzlərdə qələbə və mübarizlik əzmi vardı.

Mayor Kamil Batıyev bizi top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mübariz Balakişizadə ilə tanış etdi. Şəxsi heyət topu "səfər" vəziyyətindən "döyüş" vəziyyətinə gətirmişdi. Mübariz qeyd etdi ki, istənilən an Ali Baş Komandanımızın "İrəli" komandası ilə düşmənə zərbələr endirməyə hazırıq.

Qısa tanışlıqdan məlum oldu ki, Beyləqan rayonunun Kəbirli kəndindəndir. 4 ilə yaxındır bu hərbi hissədə top komandiridir. Müddətli həqiqi hərbi xidmətini "N" hərbi hissəsində başa vurduqdan sonra yenidən taleyini ordu həyatına bağlayıb. "Sevinirəm ki, hərbi hissəmiz təlimdə fərqlənib. Təbii ki, bu hamının təlimdə göstərdiyi yüksək döyüş hazırlığının nəticəsidir. Atış zamanı əsas vəzifəm batareyanın baş zabitindən aldığım tapşırığı baş tuşlayıcıya ötürmək idi. Tabeliyimdəki şəxsi heyət isə verilən tapşırıqları dəqiqliklə yerinə yetirdi. Mərmilərin heç biri hədəflərdən yayınmadı."

Heyət üzvlərinin hər biri təlimdə vəzifəsinin öhdəsindən layiqincə gəlib. Onlar top komandirinin başçılığı altında hər bir tapşırığı layiqincə yerinə yetiriblər.

Əsgər Nurlan Məmmədov xidmətə başladığı gündən artilleriya bölməsində olub. Təhkim olunduğu topla bağlı xeyli bilik və bacarıqlara malikdir.

Baş tuşlayıcı əsgər Zaur Babayevin isə ordu sıralarından tərxis olunmağına az qalıb. "Havanın qızmar olmağına baxmayaraq təlimlər yüksək səviyyədə keçdi. Qazandığımız uğurlara görə komandir heyətimizə borcluyuq. Gündəlik keçirilən dərslərin nəticəsidir ki, bu gün təlimlərdə heyətimiz yüksək nailiyyətlər əldə etdi. Biz hər zaman düşmənə ağır zərbələr endirməyə və işğal altındakı torpaqlarımızı azad etməyə tam hazırıq. Doğmalarımın yanına qayıtmağıma az qalsa da, müharibə başlayarsa, işğalçılara qarşı döyüşə ilk atılanlardan biri olacağam."

Heyətin digər üzvləri əsgərlər Xəlil Məmmədov, Allahverdi Mahmudov da təlimlərdə öz bacarıqları ilə fəqləniblər.

Silahlı Qüvvələrimizin gündəlik fəaliyyətində öz yeri olan artilleriyaçılarımızın peşəkarlığı günü-gündən artmaqdadır. Böyük ənənələri olan topçularımız döyüş hazırlığı sahəsində yeni-yeni nailiyyətlər qazanırlar.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Türkiyə nümayəndə heyəti Baş Klinik Hospitalda olub

*Ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Tibb Xidməti rəisi kontr-admiral Hayati Bilgiçin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 13-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub.*



Qonaqlar əvvəlcə Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını və Türk Şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra türkiyəli heyət hospitalın ərazisində ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyaraq, öz ehtiramlarını ifadə ediblər.

Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev qonaqlara hərbi hospitalın yaranma tarixi, onun fəaliyyəti, Azərbaycan hərb təbabətinin inkişaf perspektivləri, hərbi həkimlərin hazırlanması imkanları və ümumi maraq kəsb edən digər məsələlər barədə məlumat verib.

Hospitalın bölmə və şöbələri ilə tanış olan kontr-admiral H.Bilgiç ixtisaslı tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulan müasir tibbi avadanlıqla təchiz edilmiş müalicə korpuslarına baş çəkib, Hərbi Tibb Fakültəsində təhsil alan tələbə və rezidentlərlə görüşüb.

Sonra qonaqlar Azərbaycan Tibb Universitetinə gələrək təhsil müəssisəsinin rektoru, professor Gəray Gəraybəyli ilə görüşüblər.

Türkiyə hərbi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Bakıda Böyük Britaniyanın hərbi orkestrinin nümunəvi çıxışı olub

Azərbaycan Respublikası ilə Böyük Britaniya Müdafiə Nazirlikləri arasında hərbi əməkdaşlıq planına əsasən, iyunun 10-dan Bakıda rəsmi səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Kral Ordusunun "Salamanka" hərbi orkestrinin 34 nəfərlik şəxsi heyəti, Azərbaycan Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri ilə birgə iyunun 12-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində nümunəvi çıxışlar nümayiş etdiriblər. Orkestrlərin maraqlı çıxışlarını Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Karol Krofts, hərbi attaşesi polkovnik-leytenant Deyvid Ethelli, TTM-in, həmçinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyəti izləyib.



Əvvəlcə "Salamanka" hərbi orkestrinin nümayiş etdirdiyi dünya bəstəkarlarının müasir və klassik əsərləri, o cümlədən müxtəlif ölkələrin hərbi marşlarından səsləndirdikləri parçalar maraqla izlənib. Cıxışını sona çatdıran okrestr izləyənlərin alqış sədaları altında meydanı tərk edib.

Daha sonra Azərbaycan Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin çıxışları başlayıb. Orkestr Emin Sabitoğlunun "Marş sıravi Əhməd", Bill Continin "Gonna fly now" əsərlərini və digər hərbi marşları səsləndirib.

Çıxışları zamanı hər iki hərbi orkestrin şəxsi heyəti hərəkətdə yerdəyişmənin fənd və üsullarını da məharətlə yerinə yetiriblər.

Orkestrlərin cıxışları yekunlaşdıqdan sonra səfir xanım Karol Krofts, hərbi attaşe polkovnik-leytenant Deyvid Ethelli, Hərbi Orkestr xidmətinin rəisi general-mayor Yusif Axundzadə və Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin zabitləri birgə çay süfrəsinə əyləşiblər.



* * *

İyunun 12-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Britaniyanın hərbi orkestri konsert proqramı ilə çıxış edib. Konsert "The Salamanca Band and Bugles of The Rifles" hərbi orkestri ilə Azərbaycan Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin birgə proqramı əsasında təşkil olunub.



Əvvəlcə Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Karol Krofts çıxış edərək qonaqları salamlayıb.

Diplomat bildirib ki, "Salamanka" orkestri Britaniya ordusunun ehtiyatda olan zabitlərindən formalaşıb və Birləşmiş Krallığın Cənub Qərb hissəsində Wyvem "6RİFLES" adlı taborun tərkibində fəaliyyət göstərir. Orkestrin üzvləri ehtiyatda olan zabitlər olduğundan onlar müxtəlif növ mülki işlərdə çalışırlar və hər çərşənbə axşamı toplaşaraq məşq edirlər. Orkestr təkcə öz bayrağına xidmət etmir, eyni zamanda, Britaniya ordusunun və bütövlükdə geniş müdafiə sahəsini əhatə edən regional fəaliyyətlərə də öz dəstəyini göstərir. Bundan savayı orkestr London, Kipr, Fransa və digər yerlərdə müxtəlif parad və tədbirlərdə iştirak edib.

Daha sonra tədbirdə hər iki hərbi orkestrın ifasında musiqi parçaları səsləndirilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 iyun 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 129 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Fərəhli, Məzəm, Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Əsgər məktubu*

# Biz düşməndən güclüyük, ana!



Salam ana, necəsən? Atam necədir? Bilirəm, bu sətirləri oxuduqca gözlərin dolacaq. Bəlkə də kənara çəkilib səssizcə oxuyacaqsan. Həyatimizdəki üzüm çardağının altında oturub oxuyacaqsan, məncə. Bilirəm ki, oranı çox sevirsən. Həmişə evə qonaq gələndə o çardağda samovar çayı içərdik. Məndən ötrü narahat olma, əziz anam, mən yaxşıyam. Sənin ürəyin rahat olsun deyə yalandan demirəm. Həqiqətən, burada hər şey yaxşıdır. Yeməyim, geyimim, yataq yerim - hamısı qaydasındadır. Sağ olsun komandirlərimiz, valideyn kimi qayğımıza qalırlar. Düzdür, bura döyüş postudur, şəhərin mərkəzindən kilometrlərlə uzaqda düşmənlə təmas xəttindəyik, amma hər cür şəraitlə təmin olunmuşuq. Dadlı yeməklərlə qidalanır, rahat şəraitdə xidmət edirik. Bir sözlə, yüksək məişət şəraiti ilə təmin olunmuşuq. Üzərimizə bircə vəzifə düşür, Ana Vətəni göz bəbəyi kimi qorumaq. Torpaqlarımıza göz dikən mənfur qonşular tez-tez atəşkəsi pozurlar. Lakin onları dərhal cavab atəşi ilə susdururuq. Biz düşməndən qat-qat güclüyük, ana. Həm silah və texnikamız güclüdür, həm də vətənpərvərliyimiz.

Məni əsgərliyə yola saldığın günü xatırlayırsan, ana? Sanki bir toy-bayram havası var idi həyətimizdə. Qohum-qonşu, dostlarım - hər kəs ətrafıma toplaşmışdı. Ora toplaşanların "Allah Azərbaycan əsgərini qorusun" duaları səmaya ucalırdı. Hələ sənin gözlərin dolmuşdu sevincindən. Lakin o göz yaşlarında qorxu hiss etmədim. Çünki həmin gün oğlunu şanlı Azərbaycan Ordusuna əmanət edirdin. Sənin əllərindən, üzündən öpüb, səni çox sevdiyimi deyərək halallıq istədim. Vətənimizi qarşılıqsız sevməyi, onun üçün canımı fəda etməyə hazır olmağı sən öyrətmisən mənə. "Oğlum, mən səni bu Vətən üçün böyütmüşəm" söyləyərək, məni əsgəri xidmətə yola saldın. Deyirdin ki, Vətən borcu, namus borcudur. "Xidmətində möhkəm ol. Əsla qorxma. Döyüşə atılmaqdan, Vətən üçün şəhid olmaqdan qorxma", - dedin.

Qürurla başını uca tuta bilərsən, ana. Oğlun döyüş postunda düşmən qarşısında dayanıb. Vətənimə layiqli əsgər olmaq üçün əlimdən gələni edirəm. Bilirəm, ana, indi də üzünü Allaha tutub bizə dua edirsən. Yanağına süzülən göz yaşlarını əlinin tərsi ilə silib, məktubu oxumağa davam edirsən. Narahat olma, ana, bizlər əmin əllərdəyik. Ana Vətənimizi qoruyuruq. Mənim üçün darıxanda göy üzünə bax, ucsuz-bucaqsız səmanı fikirləş, bərəkətli torpaqlarımızı, gurhagur axan çaylarımızı, dağlarımızı, meşələrimizi, düzənliklərimizi fikirləş. Körpəsinə layla deyən anaları, sürüsünü otlağa aparan çobanları, zəhmətə bağlı insanları düşün. Biz onlar üçün buradayıq. Sənin üçün, bacılar, qardaşlar, atalar üçün. Dünyaya gələcək yeni körpələr üçün, xalq üçün, torpaq üçün, azadlığımız üçün, Vətən üçün buradayıq.

Ana, Əli əmim necədir? Salam söylə. Allah mənə də qismət eləsin onun kimi Qarabağ uğrunda döyüşməyi. Ata-baba torpaqlarımızı işğaldan azad edib, xalqımıza böyük qələbənin sevincini yaşatmaq üçün, hər an döyüş əmri gözləyirik. Dost-tanışa çoxlu salam söylə. Özünə yaxşı bax, ana. Allaha əmanət olun.

**Əsgər
Ruslan MEHTİLİ,
"N" hərbi hissəsi**

*18 İyun - İnsan Hüquqları Günüdür*

# Ermənistanın işğalçılıq niyyəti Azərbaycanda insan hüquqlarının pozulmasının təsdiqidir

*Müasir dövrdə ən aktual və əhəmiyyətli məsələlərdən biri də insanların hüquq və azadlıqlarının etibarlı müdafiəsidir. Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 10 dekabr 1948-ci ildə Ümumdünya İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə qəbul edib. O vaxtdan başlayaraq insan hüquq və azadlıqlarının müxtəlif normaları dünyanın bir çox dövlətlərinin əsas qanunlarında öz əksini tapıb.*



Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması sahəsində dövlətimizin ardıcıl mövqeyi bir neçə istiqamətdə aparılan işlərlə səciyyələnir. Böyük tarixi şəxsiyyət, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarıldı. Əsas Qanunumuzun üçdəbir hissəsi məhz insan hüquq və azadlıqları özündə ehtiva edir. 10 fevral 1998-ci ildə Azərbaycanda ölüm hökmü ləğv edildi və beləliklə, Azərbaycan MDB məkanında və müsəlman Şərqində bu tarixi qərarı qəbul edən ilk dövlət oldu.

Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü nəticəsində ərazilərimizin 20 faizindən çoxu işğal edilib. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, qadınlar, uşaqlar, qocalar dəhşətli zorakılıqla qətlə yetirilib, minlərlə insan əsir və girov götürülüb, tarixdə analoqu olmayan Xocalı soyqırımı törədilib. Azərbaycan dövlətinin ərazisində "Dağlıq Qarabağ Respublikası" adlı qondarma bir qurum yaradılıb. Ermənistan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı güc tətbiq edərək, işğal faktını və törətdiyi etnik təmizləmənin nəticələrini "xalqların öz müqəddəratını təyin etməsi" kimi təqdim edir.

Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Azərbaycan çoxmillətli tolerant dövlətdir. Ermənilər də ölkəmizdə yaşayan etnik qruplardan biridir. Bu səbəbdən xalqlara məxsus olan "müqəddəratı təyinetmə" hüququ onlara şamil oluna bilməz. Əgər hər bir dövlətdə yaşayan ermənilər bu iddia ilə çıxış etsələr, dünyada nə qədər erməni dövləti mövcud olardı. Prezident, Ali Baş Komandan İlham Əliyevin də çıxışlarında dəfələrlə qeyd edildiyi kimi, Azərbaycan xalqı və dövləti öz tarixi ərazilərində ikinci bir erməni dövlətinin yaradılmasına imkan verə bilməz.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanda insan hüquqları və demokratiyanın inkişafına mane olan ən başlıca səbəblərdəndir. Cənubi Qafqaz regionunda beynəlxalq hüquqa və ATƏT-in Helsinki Yekun Aktına uyğun sivil, dövlətlərarası münasibətlər bərqərar deyil. İki ölkə arasında elan edilmədən aparılan müharibənin nəticələri bölgədə sülh və sabitliyin yaranmasına mane olur. Müharibənin bütün dəhşətlərini və ölkəyə vurduğu maddi-mənəvi zərəri təkcə statistik göstəricilərlə ifadə etmək mümkün deyil. İşğal nəticəsində, bütövlükdə Azərbaycanın 900-ə yaxın yaşayış məntəqəsi dağıdılaraq məhv edilib. Münaqişə nəticəsində 20 mindən çox Azərbaycan vətəndaşı həlak olmuş, 50 mindən çox insan yaralanmış, əlil və ya şikəst olmuş, bir neçə min insan isə itkin düşmüşdür.

Bununla yanaşı, Ermənistanla həmsərhəd olan rayonlarımızın iqtisadiyyatı da ciddi zərər görüb. Atəşkəsin düşmən tərəfindən davamlı pozulması həmsərhəd ərazidə yaşayan vətəndaşlarımızın hüquqlarına vurulan ziyanın təsdiqidir.

Azərbaycanın haqlı tələblərinə, bütün dünyanın təcavüzkarlıq faktını pisləməsinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini davam etdirir. Bu işğalın nəticəsi olaraq, Azərbaycan dövlətinin ərazi bütövlüyü kobud şəkildə pozularaq Qarabağ əhalisinin yaşamaq hüququ əlindən alınıb.

BMT-nin 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistanın Azərbaycana qarşı təcavüzünə hüquqi qiymət verilmişdir. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü yenidən təsdiq edilərək hərbi əməliyyatlara dərhal son qoyulması, işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılması, qaçqınların doğma yurd-yuvalarına geri qaytarılması tələb edilmişdir. BMT-nin Baş Məclisi hələ 23 mart 1994-cü ildə qəbul olunmuş Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında qətnaməsində Azərbaycanda qaçqınların və yerlərini dəyişmiş şəxslərin sayının bir milyonu keçməsini qeyd etmişdir.

Erməni qəsbkarları tərəfindən törədilən Xocalı soyqırımı insan hüquq və azadlıqlarının ən kobud və ən qəddar şəkildə pozulmasına bir nümunədir və bu, bir çox beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə də öz əksini tapıb. Bu sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Xocalıda mülki insanların vəhşicəsinə öldürülməsi birmənalı olaraq pislənilir. Azərbaycan Respublikasının ərazi bütövlüyünə dəstək ifadə olunaraq, güc tətbiq etmək yolu ilə ərazi əldə edilməsinin BMT nizamnaməsinə və beynəlxalq hüquqa zidd olduğu bir daha vurğulanır, Xocalı qurbanlarının və onların qohumlarının onlara vurulmuş mənəvi və maddi itkilərə görə ədalətli və hüquqi əsasda təzminat almaq hüququ da tanınır.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 5-ci maddəsində göstərilir: "Heç kim işgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır".

Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların şərəf və ləyaqətinin qorunması Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsasını təşkil edir. Bu istiqamətdə tədbirlər ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırır. "Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk", - deyən ölkə başçısının birbaşa tövsiyə və göstərişləri əsasında görülən sistematik işlər insanların hüquq və azadlıqlarının müdafiəsi sahəsində xüsusi əhəmiyyət kəsb edir.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Tankçı olmaq uşaqlıq arzusu idi



Doğma Azərbaycanımızın bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da yüksək inkişafın hər addımda şahidi oluruq. Ali Baş Komandanın və Müdafiə nazirinin orduya göstərdiyi diqqət və qayğı sayəsində regionda sözünü deyə bilən, müasir silah və texnika ilə təmin olunan qüdrətli ordumuz formalaşıb. Belə güclü və müasir orduda xidmət edən zabitlərin üzərinə şəxsi heyətə döyüş vərdişlərini, silah və texnikadan istifadə qaydalarını öyrətmək, həmçinin onlara döyüş ruhunun aşılanması, mənəvi-psixoloji hazırlığının yüksək tutulması kimi mühüm vəzifələr düşür. Onlar hərb sənətinə olan sevgiləri, vətənpərvərlikləri, dövlətimizə bağlılıqları ilə tabeliklərində olan əsgərlərə həm şəxsi nümunə olur, həm də bilik və bacarıqlarını öyrədirlər. Belə bacarıqlı zabitlərdən biri ilə ön xətdə ezamiyyətim zamanı tanış oldum.

Qərargahda polkovnik-leytenant Elşən Yusifovla söhbət edərkən, tank taqım komandiri leytenant Elşən Şahverdiyevdən ağızdolusu danışdı. Onun bilikli, məsuliyyətli və vəzifəsinin öhdəsindən bacarıqla gələn zabit olduğunu dedi. Daha sonra zabitlə birlikdə gənc leytenantı yaxından tanımaq üçün parkda texnikalara qulluq göstərən şəxsi heyətin yanına getdik. Leytenant Elşən Şahverdiyev tabeliyindəkilərlə birgə həm texnikalara qulluq göstərir, həm də texnikanın üzərinə quraşdırılmış silah və top haqqında heyət üzvlərinə məlumat verirdi. Yaxınlaşıb onunla həmsöhbət oldum.

Tanışlıqdan məlum oldu ki, gənc zabit Salyan rayonundandır. 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olan zabit 2016-cı ildə leytenant rütbəsi alaraq tank bölməsinin taqım komandiri kimi "N" hərbi hissəsində xidmətə başlayır.

- Necə oldu ki, hərbçi olmaq qərarına gəldin? - deyə ondan soruşdum.

- Atam Qarabağ döyüşlərində iştirak edib. Mən hər dəfə onun ağrılı-acılı müharibə xatirələrini eşidəndə gözlərim dolurdu. Ermənilər xalqımızın başına olmazın müsibətlər açıb, torpaqlarımızı işğal ediblər. Belə bir şəraitdə qəti qərara gəldim ki, hərbçi olacam. Fikrimi bir gün atama bildirdim. O, çox sevindi. Atam məni hərbçi kimi görmək istəyini gizlətmirdi. Həmişə deyərdi ki, əgər yaxşı bir zabit və yaxşı bir insan olmaq istəyirsənsə, onda bu torpaqları çox sev, onun üzərində nə varsa, hamısını daha çox sev. İndi özümü xoşbəxt hesab edirəm, çünki həyatda məqsədim, məramım müqəddəsdir. Hər dəfə atama da dönə-dönə minnətdarlığımı bildirirəm. Vətənimizin qorunmasında bir övlad, bir vətəndaş, bir hərbçi kimi iştirakımla qürur duyuram.

Elşənin dediyinə görə, tankçı olmaq onun yeniyetmə yaşlarından arzusu idi. Ürəkdən gələn bu istək, arzu isə onu pillə-pillə ucaldır. Zamanında hərbi bilikləri mənimsəyib, döyüş təcrübəsi qazanmaq üçün yorulmadan çalışıb. Elə buna görə də əsl komandirə xas xüsusiyyətlər onda cəmləşib. Gənc zabit öz bilik və bacarığına görə istər bölmə komandirinin, istərsə də hərbi hissə komandanlığının rəğbətini qazanıb.

Tabeliyindəkilərə son dərəcə tələbkar və qayğıkeş olan zabit bildirdi ki, hər bir komandir tabeliyindəkilərin təlim-tərbiyəsi ilə yanaşı, onların problemlərini də öyrənməli, onlarla komandir-əsgər münasibətləri qurmağı bacarmalıdır. "Çalışıram ki, tabeliyimdə olan hər kəs ürəyindəkiləri məndən gizli saxlamasın. Ona görə də boş vaxtlarımda onlarla mütəmadi söhbət edirəm. Belə münasibət şəxsi heyətdə inam və etibar hisslərini, döyüş vərdişlərini gücləndirir. Yalnız belə olan halda onların döyüş ruhu da yüksək səviyyədə olur."

Zabitlə söhbətim qəlbimdə xoş hisslər yaratdı. Doğrudan da, belə hazırlıqlı, vətənpərvər zabitlərimizlə tanış olanda fərəhlənirəm. Onlara "Vətən sizin kimi oğullarla fəxr edir", deyərək, çətin, məsuliyyətli və bir o qədər də şərəfli hərbçi həyatında uğurlar arzulayıram. Əlbəttə, belə zabitlərimizin hesabına ordumuz daha da qüdrətlənir.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. 1991-1994-cü illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşması tarixi.**

**2. 1992-1994-cü illərdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri.**

**3. Azərbaycan Silahlı Qüvvələrinin 1992-1994-cü illərdə apardığı döyüşlərin tarixi əhəmiyyəti və nəticələri.**

**Mövzu:** Dağlıq Qarabağ münaqişəsi, tarixi faktlar, nəticələr. 1992-1994-cü illərdə erməni işğalçılarına qarşı aparılan mübarizədə döyüşçülərimizin göstərdikləri qəhrəmanlıq nümunələri.

*1991-1994-cü illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşması tarixi*

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası ilk günlərdən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə üzləşdi. Belə bir şəraitdə erməni təcavüzünün qarşısını ala biləcək, ölkəmizin müstəqilliyini və ərazi bütövlüyünü qoruya biləcək yeganə qüvvə yalnız ordu ola bilərdi. Bu məqsədə nail olmaq üçün heç də asan olmayan bir prosesə - ordunun tezliklə yaradılması prosesinə başlanıldı.

Ancaq həmin dövrdə respublika daxilindəki çəkişmələr, vəzifə xatirinə xalqa, millətə edilən xəyanətlər şəxsi heyətdə dövlət rəhbərliyinə olan inamı qırmışdı.

Belə səhvlərin acı nəticələri tez bir zamanda özünü büruzə verdi. 1992-ci il mayın 8-də Azərbaycanın alınmaz qalası sayılan Şuşa, mayın 18-də isə Laçın işğal edildi. Bununla da Qarabağ-Ermənistan dəhlizi açıldı. 1992-ci ilin yayında Azərbaycan Silahlı Qüvvələrinin hissələri Dağlıq Qarabağda bir sıra uğurlu əməliyyatlar aparmağa müvəffəq olsalar da, o vaxtkı Azərbaycan rəhbərliyi bu uğurlardan istifadə edə bilmədi. Ölkədə ictimai-siyasi sabitliyin olmamasından istifadə edən erməni silahlı birləşmələri 1993-cü ilin aprelində Kəlbəcəri işğal etdilər və Dağlıq Qarabağ ətrafındakı rayonların işğalı üçün əlverişli zəmin yarandı.

Uzun sürən özbaşınalıqlardan, xəyanətlərdən bezmiş xalqın təkidi ilə ümummilli liderimiz Heydər Əliyev yenidən hakimiyyətə dəvət olundu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi fəaliyyətə başladığı ilk günlərdən ulu öndər Heydər Əliyev ordu quruculuğu işini elmi əsaslarla, planlı surətdə həyata keçirməyə başladı.

1993-cü il noyabrın 1-də ümummilli lider Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Müdafiə Şurası yaradıldı. 1993-cü il noyabrın 2-də ulu öndər Heydər Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Ümummilli Liderimizin bu tarixi müraciətindən sonrakı dövr ordu quruculuğunda əsas mərhələnin başlanğıcıdır.

Ümummilli lider Heydər Əliyevin 1993-cü il noyabrın 4-də könüllü cəbhəyə yollanmaq istəyən Əfqanıstan müharibəsi iştirakçılarının bir qrupu ilə, noyabrın 7-də isə təlim mərkəzində olan hərbi hissələrdən birinin şəxsi heyəti ilə görüşləri orduda mənəvi və döyüş əhval-ruhiyyəsinin gücləndirilməsinə, gənclərdə vətənpərvərlik hisslərinin yüksəldilməsinə müsbət təsir göstərdi.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri son bir neçə ay ərzində ilk dəfə olaraq Azərbaycan Silahlı Qüvvələrinin hissələrinin güclü müqavimətinə rast gələrək uğursuzluğa düçar oldular. 1993-cü il dekabrın 28-də Ermənistan qoşunlarının Goranboy, Tərtər və Ağdam istiqamətlərində də hücumlarının qarşısı alındı. Bu istiqamətlərdə düşmənin xeyli canlı qüvvəsi, texnikası məhv edildi və o, geri çəkilməyə məcbur oldu. Füzuli-Beyləqan istiqamətində döyüşçülərimiz 40 km-ə qədər irəliləyərək düşməni darmadağın etdilər.

Həmin günlərdə Ümummilli Lider Heydər Əliyevin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı, səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması, döyüşçülərin qayğıları ilə yaşaması onlara yeni ruh, yeni qüvvə verirdi. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurlar öz müsbət təsirini göstərdi və ordunun gücünü hiss edən düşməni 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur etdi.

*1992-1994-cü illərdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri*

1991-1993-cü ilin ortalarına qədər ordu quruculuğunda buraxılan səhvlərə baxmayaraq, Silahlı Qüvvələrimizin şəxsi heyətinin böyük əksəriyyəti 1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə igidliklə vuruşmuşdur. Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş mayor Rasim İbrahimov, mayor Əliyar Əliyev, baş leytenant Elşad Əhədov, çavuş Etibar İsmayılov, əsgər Fərhad Hümbətov, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş baş leytenant Elxan Yusifov, əsgər Şamil Cəbrayılov və yüzlərlə digər Azərbaycan vətəndaşı döyüş meydanlarında əsl qəhrəmanlıq göstərmişlər.

Mayor Rasim İbrahimov Füzuli istiqamətində döyüşən taborlardan birinin komandiri idi. O, 1992-ci il iyunun 28-də döyüş zamanı bir neçə əsgəri ilə düşmən mühasirəsinə düşdü. Kiçik bir qrupu əsir alacaqlarına arxayın olan ermənilər onlara təslim olmağı təklif etdilər. Döyüşçülərimiz sayca özlərindən dəfələrlə çox olan düşmənə qarşı son güllələrinədək vuruşaraq onlarla ermənini məhv etdilər. Ancaq bu qeyri-bərabər döyüşdə əsgərlərimiz də şəhid oldular. Ermənilər Rasimin tək qaldığını görərək, ona təslim olmağı təklif etmişdilər. Rasim isə "Azərbaycan zabiti əsir düşmür" sözləri ilə sonuncu qumbarasını partladaraq həm özü həlak olmuş, həm də bir neçə düşmən əsgərini məhv etmişdi.

Çavuş Etibar İsmayılov 1994-cü il yanvarın 4-də Xocavənd rayonunun "Nərgiztəpə" yüksəkliyi uğrunda gedən döyüşdə şəxsi igidlik göstərərək düşmən səngərinə birinci daxil oldu və əsgərlərimizin irəliləməsi üçün şərait yaratdı. Geri çəkilən düşmən yeni qüvvə toplayaraq tankların köməyi ilə əks-hücuma keçdi və döyüşçülərimizin mühasirəyə düşmək təhlükəsi yarandı. Düşmən tankının səngərə yaxınlaşdığını görən Etibar axırıncı tankəleyhinə qumbara ilə düşmən tankının altına atılaraq tankı məhv etməklə öz yoldaşlarını mühasirədən qurtardı.

Əsgər Şamil Cəbrayılov 1993-cü ilin axırında hərbi xidmətə çağırılmışdır. Qısa bir müddətdə öz silahından bacarıqla istifadə etməyi öyrənən Şamil dekabrın 13-də zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənlə döyüşdə soyuqqanlıqla ermənilərin 2 tankını məhv etmişdir.

Vətən uğrunda döyüşlərdə Rasim İbrahimov, Əliyar Əliyev, Elxan Yusifov, Elşad Əhədov, Etibar İsmayılov kimi qəhrəmanlıqlar göstərən zabit və əsgərlərimiz çoxdur. Onların qəhrəmanlıqları dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərərək şəhid olanların xatirəsini ehtiramla yad edərək demişdir: "Onların qəhrəmanlıq nümunələri bizim qəlbimizdə əbədi yaşayacaqdır və ordumuzun bugünkü əsgərləri gələcək döyüşçülər üçün nümunə, örnək olacaqdır. Onlar öz qəhrəmanlıqları ilə özlərini əbədiləşdiriblər. Ordumuz məhz həmin qəhrəmanlıq nümunələri əsasında formalaşır, qurulur, böyüyür, artıq bu gün Azərbaycanın dövlət müstəqilliyini, ölkəmizin hüdudlarını, ərazisini qoruya bilən qüdrətli bir orduya çevrilibdir".

*(Qrup rəhbəri bu sualın şərhi zamanı hərbi hissənin döyüş yolu, döyüşlərdə qəhrəmanlıq göstərmiş hərbi qulluqçuları haqqında materiallar toplayıb öyrənməli, dərsin gedişində həmin məlumatlardan istifadə etməyə hazır olmalı, eləcə də dərsin keçirilməsinə hərbi hissədə xidmət edən müharibə iştirakçılarının nümayəndələrini cəlb etməlidir).*

*Azərbaycan Silahlı Qüvvələrinin 1992-1994-cü illərdə apardığı döyüşlərin tarixi əhəmiyyəti və nəticələri*

1993-cü ilin dekabr - 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Silahlı Qüvvələrinin döyüşlərdə qazandığı uğurlar bir daha sübut etdi ki, vahid dövlət və ordu quruculuğu sahəsində dövlətin apardığı siyasət əsaslandırılmış və ardıcıl olarsa, Silahlı Qüvvələrin təşkili və gücləndirilməsində yüksək nailiyyətlər əldə etmək olar.

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən daxili və xarici siyasəti sayəsində Silahlı Qüvvələrin müasir texnika və silahlarla təchiz olunması, ordunun zabit kadrları ilə komplektləşdirilməsi, hərbi hissələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur.

Bu gün səmərəli hərbi təhsil sistemi yaradılmış, hərbi kadr və mütəxəssislərin hazırlıq proqramları, hərbi təhsilin pillələri və onları həyata keçirən hərbi tədris müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğu məsələlərini öz diqqət mərkəzində saxlayır. Prezident öz çıxışlarından birində demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır".

Hazırda respublikamızın Silahlı Qüvvələri üçün müxtəlif kateqoriyalardan olan hərbi kadrların hazırlanması Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında, ali hərbi məktəblərdə, zabit heyətinin təkmilləşdirmə kurslarında, hərbi tibb fakültəsində və gizir hazırlığı kurslarında həyata keçirilir. Prezident İlham Əliyevin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və ordunun peşəkar zabit kadrlarına olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır.

Orduda vahid komandanlığın təmin edilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı hərbi hissələrdə hərbi intizamın səviyyəsindən bilavasitə asılıdır. Komandir və rəislər tərəfindən verilmiş əmr və göstərişlərin vaxtında, dəqiq yerinə yetirilməsi döyüş zamanı qələbənin əldə edilməsinin əsas amilidir. Möhkəm hərbi intizama, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olmayan şəxsi heyətin əlində ən müasir silah dəmir parçasından başqa bir şey deyildir.

Hazırda Silahlı Qüvvələrin təlim mərkəzlərində dünyanın ən qabaqcıl, müasir ordularının döyüş və mənəvi-psixoloji hazırlıq üsullarından istifadə edilir. Bu istiqamətdə bir çox böyük dövlətlərin Azərbaycanla hərbi əməkdaşlıq sahəsində imzaladığı müqavilələr xüsusi əhəmiyyət kəsb edir. Son dövrlər Azərbaycan Silahlı Qüvvələri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan bütün tədbirlərdə, təlimlərdə fəal iştirak edərək, dünya dövlətlərinin ordu quruculuğu sahəsində qabaqcıl təcrübələrinə yiyələnir.

Bu gün Azərbaycan Ordusunun hər bir əsgər və zabiti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpasına, torpaqlarımızı işğalçılardan azad etməyə hər an hazırdır. Bunu 2016-cı ilin aprel döyüşlərində Azərbaycan Ordusu bir daha sübut etdi.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Ovqat

# Sən Azərbaycan əsgərisən!

*Yayın qızmar bir vaxtında dağlıq bölgəyə ezamiyyətə getmək ürəyimcə oldu. Çünki paytaxtımızla, yaxud aran bölgələrimizlə müqayisədə o yerlərdə havalar sərin, mülayim keçir. Sıx meşələrinə, dupduru bulaqlarına yaxşı bələd idim...*

*Bu dəfə özümlə əsgərlərə sovqat da aparırdım, məktəblilərin bir yığın məktublarını çantama yığmışdım. Bakının 158 saylı tam orta məkəbinin şagirdləri ön xətdə xidmət edən Vətən oğullarına xoş arzularla dolu məktublar yazmışdılar.*






Hərbi hissənin qərargahında təcrübəli zabit, aprel döyüşlərinin fəal iştirakçılarından biri Fuad Ələkbərovla səhər yeməyindən sonra görüşəndə bir qədər qayğılı olduğunu duydum. "Ermənilər xain xislətlərindən əl çəkmirlər, yenə ötən gecə atəşkəsi iriçaplı silahlar vasitəsilə pozublar. İndi həmin istiqamətdə yerləşən döyüş postlarına gedəcəm", - dedi. Sonra ön xətdəki bölmələrin hazırlığından danışdı, istənilən an düşmənin təxribatlarına qətiyyətlə cavab vermək iqtidarında olduğunu bildirdi. Qeyd etdi ki, həmin bölmələrdə yüksək məişət şəraitinin mövcudluğu şəxsi heyətə döyüş əzmi aşılayır.

Sonra cavabdeh zabitlərdən biri ilə hərbi hissədən dağlara yol gedirik. UAZ-ın sürücüsü etibarlı adamdır, dağlıq əraziyə yaxşı bələd olması ilə yanaşı, həm də maşını çətin yollarda ustalıqla idarə edir. Onun öz peşəsinin bilicisi olduğunu düşünəndə, ataların bir məsələni xatırlayıram: "Çörəyi çörəkçiyə verərlər". Sıx meşələrlə əhatələnən dağ yolunun sağında qoyun sürülərinə, yamyaşıl çəməndə dirsəklənib kənara iti nəzər yetirən çobana da həvəslə tamaşa edirəm. Xəyalımdan məni mayor Hüseynovun səsi ayırır. "Bu ərazilər düşmənlə təmas xəttinə yaxındır, amma yerli adamlar igid əsgərlərimizə güvəndikləri üçün qorxu nə olduğunu hiss etmirlər. Yaxşı bilirlər ki, Azərbaycan əsgəri qarşı zirvədə döyüş postundadır, onun sayıqlığı nəticəsində heç bir qüvvə burada təxribat törədə bilməz".

Bu yerlərdə xidmət edən zabitlərin də fədakarlığına həmişə həsəd aparıram, axı belə çətin şəraitdə xidmət etmək adamdan dözüm, cəsarət tələb edir. Burada komandir olan şəxs hər bir əsgəri göz bəbəyi kimi qoruyur, onun sağlamlığı qayğısına qalır, düzgün qidalanmasına, əyin-başına ciddi fikir verir. Zabitlərin doğmalığı da öz növbəsində əsgərləri ürəkləndirir, onları Vətənimizə sədaqətlə, məsuliyyətlə xidmət etməyə ruhlandırır.

Əsgərlərə verəcəyim məktublara baxanda mayor yaman sevinir. "Bir məktəblinin ürək sözü əsgərlərimizə ruh verir, əsgər biləndə ki, arxada onun üçün narahat olan, onu düşünən var, daha da ürəklənir". Budur, döyüş postuna yetişirik, bölmə komandiri olan gənc zabit gəlişimizdən sevinir, əsgərlərə "Azərbaycan Ordusu" qəzetindən olduğumu bildirir. Sonra əsgərlərin bir qrupu ilə çəmənlikdə əyləşib məktubları onlarla bölüşürəm. Yaman sevinirlər, tələsik hərə bir məktub açıb oxuyur. Məktubları yazanlar da müxtəlif yaşda olan məktəblilərdir. Doqquzuncu, səkkizinci, hətta ikinci-üçüncü sinif şagirdləri də ən xoş arzularını Vətənimizin gənc müdafiəçiləri ilə bölüşürlər. Əlimə keçəni açıb oxuyuram, nə qədər səmimi sözlər, fikirlər var bu məktublarda. Hər bir arzu-istəyin ünvanı isə Azərbaycan əsgəridir, onun fədakarlığı, Vətənə olan sevgisidir. Xüsusən yuxarı sinifdə oxuyan oğlanların ürək sözləri ilə tanış olanda hiss edirəm ki, onlar da tezliklə özlərini Vətən keşikçilərinin sıralarında görmək arzusundadırlar. Yazırlar ki, Vətəni qoruyan oğullar müqəddəs bir amalın sahibləridir, çünki onlar xalqımızı, dövlətimizi düşmən təxribatlarından mətinliklə qoruyur, əmin-amanlığın keşiyində dayanırlar.

Üçüncü sinif şagirdi Fazil İbrahimlinin yazısı isə ürəyimə sevinc yayır. Bu məktubdan sətirləri olduğu kimi təqdim edirəm. "Sən məni tanımırsan. Heç mən də səni tanımıram. Amma bilirəm ki, sən yaxşı oğlansan, axı sən Azərbaycan əsgərisən. Soyuq-şaxtalı, qarlı-çovğunlu bir havada sinəni düşmənə sipər edib gecə-gündüz torpaqlarımızı düşməndən qoruyursan. Elə buna görə də sən yaxşı oğlansan..." Nə qədər sadə, səmimi yazılmış bir məktubdur. Başqa zərflərə də diqqət yetirəndə gənc nəslin əsgərlərimizə olan mehrini, ülfətini hiss edirəm. Məsələn, Malik adlı məktəbli yazır: "Mən də böyüyəndə sizin kimi əsgər olacam". Zemfiranın məktubundan da bir cümləni seçirəm. "Biz ermənlərdən qorxmuruq, çünki sizin kimi igid əsgərlərimiz var". İkinci sinif şagirdlərindən Zəhra "Biz fəxr edirik ki, siz varsınız" və Rəşid "Biz inanırıq ki, sizin kimi igid əsgərlərimiz doğma torpaqlarımızı işğaldan azad edərək şəhidlərimizin intiqamını alacaq" yazırlar.

Hər məktub maraqlıdır, çünki hər birində bir ürək döyüntüsü hiss edilir. Məktəblilər hamılıqla əsgərlərimizə cansağlığı, uzun ömür diləyir və qələbə sorağı ilə doğmalarına qovuşmağı arzulayırlar. Ətrafımdakı əsgərlər məktubları böyük maraqla oxuduqdan sonra məktəblilərə və onların müəllimlərinə salamlarını çatdırmağı xahiş edirlər. Bəziləri isə xoşlarına gələn məktublara cavab göndərəcəklərinə söz verirlər...

Bütün xalqımız kimi, məktəblilər də əmin olsunlar ki, qəhrəman Azərbaycan əsgəri tezliklə yurdumuzu işğaldan azad edəcəkdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### İran beş təyyarə ilə Qətərə ərzaq yardımı göndərib



Bu barədə İran Hava Yolları şirkətinin rəhbəri Şahrux Nüşəbadi mətbuat açıqlamasında deyib. Onun sözlərinə görə, meyvə və tərəvəzdən ibarət olan 90 ton ərzaq yardımı beş təyyarəyə yüklənərək Doha şəhərinə yola salınıb.

Yerli mətbuatin yazdığına görə, İran Qətərə gəmilərlə də ərzaq məhsulları göndərib. Bu günədək Qətər limanlarına gəmilərlə 359 ton ərzaq məhsulları göndərilib.

Xatırladaq ki, Yaxın Şərq dövlətlərinin Qətərlə diplomatik əlaqələri kəsərək bu dövlətə qarşı sanksiya tətbiq etməsi əmirlikdə ərzaq qıtlığı yaradıb.

### Türkiyədə daha bir hərbçi şəhid olub



Türkiyənin Bingöl bölgəsindəki Gənç rayonunda PKK terrorçularına qarşı keçirilən antiterror əməliyyatında da bir əsgər şəhid olub.

Bundan başqa, Diyarbəkirdə hərbi maşının keçdiyi yolda PKK tərəfindən partlayış törədilib. Hadisə vilayətin Silvan rayonunda baş verib.

Rəsmi məlumata görə, Türkiyə Silahlı Qüvvələri ölkənin şərq və cənub-şərq bölgələrində antiterror əməliyyatlarını davam etdirir.

### Rumıniya, Bolqarıstan və Macarıstan 24 ölkə hərbçilərinin qatılacağı təlimlərə ev sahibliyi edəcək



İyulda ABŞ və daha 23 ölkədən 25 min hərbçi Rumıniya, Bolqarıstan və Macarıstanda keçiriləcək "Saber Guardian" hərbi təlimlərində iştirak edəcək.

"Saber Guardian" Qara dənizdə bu il planlaşdırılan 18 təlim arasında ən genişmiqyaslısı hesab olunur. Təlimlərdə hərbi əməliyyatlar, çayların keçilməsi, ağır təlafat zamanı birgə fəaliyyət, qısa vaxtda Avropanın hər hansı ölkəsində hərbi qüvvələrin birləşməsi kimi tapşırıqlar yerinə yetiriləcək.

### Çində təyyarə mühərrikdəki nasazlığa görə təcili eniş edib



"China Eastern Airlines"ın Sidney-Şanxay istiqamətində uçan təyyarəsi havaya qalxandan bir neçə dəqiqə sonra mühərrikdə yaranan nasazlığa görə Sidney aeroportuna qayıtmalı olub. Xəsarət alan olmayıb.

Şirkətin yaydığı məlumatda bildirilir ki, bazar günü yerli vaxtla saat 20:30-da Sidney aeroportundan səmaya qalxan "Airbus A330" tipli təyyarənin sol mühərriki hissəsində dəlik əmələ gəlib. Pilotlar dərhal aeroporta geri qayıtmağı qərara alıblar. Təyyarə normal qaydada yerə enib. "Airbus" təyyarələrini mühərriklə təmin edən "Rolls-Royce" şirkətinin rəsmisi hadisə ilə bağlı məlumat aldıqlarını, müvafiq tərəflərlə birgə hadisənin baş verməsəbəbini araşdırdıqlarını deyib.

### Parisdəki zinət mağazasından iki milyon avro dəyərində daş-qaş oğurlanıb



Qarətçilər Parisdəki zinət mağazasından iki milyon avro dəyərində qiymətli daş aparıblar.

Oğurluq şənbə və bazar ertəsi günləri arasında baş verib. Cinayətkarlar qonşuluqdakı şirkətin ofisinə girərək, iki binanın arasındakı divarı söküblər.

Qarət olunmuş mağaza Parisin III dairəsində - Fransa paytaxtının tarixi mərkəzində yerləşir.

**AZƏRTAC-ın materialları əsasında**

# Sürət, çeviklik, əzmkarlıq

## Silahlı Qüvvələrin atletika birinciliyi keçirilib

*Silahlı Qüvvələrin atletika birinciliyi də artıq arxada qaldı. İyunun 6-da Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda startı verilən yarışlarda müxtəlif qoşun növlərindən gəlmiş kişi və qadın idmançılar bu idmanın ayrı-ayrı növləri üzrə mübarizə apardılar. Açılış mərasimində çıxış edən Müdafiə Nazirliyi fiziki hazırlıq və idman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev yarış iştirakçılarını salamladı və onlara uğurlar arzuladı.*



Birincilikdə 14 komandadan 150-dən artıq atlet yeddi növdə mübarizə aparırdı. Beynəlxalq qaydalara uyğun keçirilən birincilikdə kişi və qadın idmançılar 100, qadınlar 1000 metr, kişilər 3000 metr məsafəyə qaçış, hündürlüyə və uzununa tullanma, nəhayət, 4x400 məsafəyə estafet yarışında güclərini sınadılar. Artıq iki ildir ki, Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının hakimləri yarışları idarə edir, birinciliyin ədalətli və obyektiv keçməsi üçün əllərindən gələni əsirgəmirlər. Birinciliyin baş hakimi, Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının dosenti, respublikanın əməkdar məşqçisi Şirin Vəliyev idi və onun rəhbərliyilə hakimlər öz vəzifələrinə yetərincə məsuliyyətlə yanaşdılar, nəticədə ən güclü və çevik atletlər birinciliyin qalibləri adlarını qazandılar.

Təntənəli açılış mərasimindən sonra birinciliyin ilk günündə start xəttinə sprinterlər çıxdılar və hakimlərin nəzarəti altında 100 metr məsafəyə qaçdılar. Bu məsafəyə yarışda həm qadın idmançılar, həm də kişi atletlər iştirak edirdi. Qadınlar həm də 1000 metr məsafədə birinciliyin medalları uğrunda mübarizə apardılar. Əminliklə demək lazımdır ki, qadın hərbi qulluqçular əzmkarlığa görə kişi idmançılardan heç də geri qalmırdılar.

Bir sözlə, Silahlı Qüvvələrin atletika birinciliyi yüksək ovqatla keçirildi və daha çox layiq olanlar adlarını mükafatçılar sırasına yazdırdılar.

Yarışların yekununda polkovnik Sadiq Paşayevin birinciliklə bağlı fikirlərini öyrəndik.

- Yarış maraqlı idman mübarizəsi şəraitində keçdi, - polkovnik dedi. - Hiss olunur ki, həm idman mütəxəssisləri, həm də idmançılar birincilik ərəfəsində ciddi hazırlaşıblar. Nəticələr də ürəkaçandır. Bir növdə, hündürlüyə tullanmada özünüz də gördünüz ki, iki idmançı eyni yüksək nəticə göstərdi. Hakimlər təklif etdilər ki, beynəlxlaq qaydalara uyğun olaraq hər iki atletə qızıl medal verilsin. Biz onların qərarı ilə razılaşdıq. Bu həm də yarışların ədalətli keçməsini göstərir. Doğrudan da, bu birincilikdə də ən güclülər qalib adını qazandılar və adlarını yarışların tarixinə yazdırmağı bacardılar.

### 100 metr məsafəyə qaçış

Ən qısa məsafəyə kişilərin yarışı da gərgin idman mübarizəsi şəraitində keçdi və atletlər qısa aralanmalarla finiş xəttini keçdilər. Yarışda da qərb bölgəsinin nümayəndəsi əsgər Cahangir Əlimərdanov finişə hamıdan tez çatdı və məsafəni 11.49 saniyəyə qaçaraq qalib adını qazandı. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Elçin Fərəcov ikinci nəticə ilə birinciliyin gümüş medalına yiyələndi. Hərbi Hava Qüvvələrinin atleti Kamran İbrahimov üçüncü nəticə göstərdi.

Qadınlar arasında 100 metr məsafəyə qaçışda "Şəmkir" komandasının idmançısı kiçik çavuş Ülkər Sadıqova bütün rəqiblərini qabaqlayaraq finişə birinci çatdı. Qeyd etmək lazımdır ki, ötənilki birincilikdə də kiçik çavuş Ülkər Sadıqova mükafatçılar sırasına düşmüş, ikinci olmuşdu. O zaman Ülkər söz vermişdi ki, növbəti birinciliyə yüksək səviyyədə hazırlaşacaq və birinci yeri tutacaq. Kiçik çavuş verdiyi sözə sadiq qaldı, iradə və əzmkarlıqla yarışaraq qızıl medala sahib çıxdı. Bu növdə "Bərdə" komandasının atleti əsgər Zəhra Babayeva finişə ikinci çatdı. "Mühafizəçilər"in yetirməsi əsgər Gülnarə Məmmədova isə üçüncü nəticə göstərməklə birinciliyin bürünc medalını qazandı.

### 1000 metr məsafəyə qaçış

Qadınların 1000 metr məsafəyə qaçışı da idman mübarizəsi şəraitində keçdi. Əsgər Firəngiz Kərimova (HHQ) daha yaxşı çıxış edərək bütün rəqiblərini qabaqlamağı bacardı. Firəngiz ikinci ildir ki, Silahlı Qüvvələr birinciliyinin qalibi olur və komandasına vacib xallar qazandırır. "Beyləqan" komandasının atleti qadın hərbi qulluqçu Samirə Əhmədli yarışı ikinci yerdə başa vurdu və birinciliyin gümüş medalını qazandı. Təlim və Tədris Mərkəzinin zabiti Cəmilə Rəfiyeva mübarizəni üçüncü başa vurdu və mükafatalayiq yeri özünə təmin etdi.



### 3000 metr məsafəyə qaçış

Kişilərin 3000 metr məsafəyə qaçışında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Qəşəm Səfərov komandasına birinciliyin qızıl medalını qazandırdı. Ondan sonra finişə Hərbi Hava Qüvvələrinin idmançısı gizir Fəqət Quliyev çatdı. "Şəmkir" komandasını təmsil edən kiçik çavuş Adil Qiyasov sonuncu mükafatçı oldu və komandasına vacib xallar qazandırdı.



Uzunluğa tullanmada Hərbi Hava Qüvvələrinin idmançısı leytenant Kamran Hüseynov hamıdan yaxşı nəticə göstərərək qızıl medal qazandı. Gənc zabit ötənilki birincilikdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı kimi çıxış edərək birinci olmuşdu. İkinci yeri əsgər Mahir Əliyev tutaraq gümüş medala yiyələndi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Hicran Kərimli isə bürünc medala layiq görüldü.

### Hündürlüyə tullanma

Hündürlüyə tullanma atletika yarışlarında ən baxımlı növlərdəndir. Bu növdə idmançının texniki ustalığı da, gücü də, çevikliyi də dərhal nəzərə çarpır və tamaşaçıda rəğbət oyadır. Ona görə yarışı stadionda hamı maraqla izləyirdi və nəticələr də yetərincə maraqlı oldu. Digər rəqiblər mübarizəni dayandırdıqdan sonra əsas mübarizə "Şəmkir" komandasını təmsil edən, birinciliyin ötənilki qalibi əsgər Ələs Zeynalovla "Bərdə" komandasının atleti gizir Samir Xəlilov arasında getdi. Hər iki idmançı eyni hündürlüyə tullandıqlarına görə, hakimlərin qərarına əsasən birinciliyin qızıl medalını qazandılar. Əsgər Pərvin Əsədov (HHQ) yarışı üçüncü yerdə başa vuraraq bürünc medala yiyələndi.

### 4x400 metr məsafəyə estafet

Nəhayət, 4x400 metr məsafəyə estafet yarışı da idmançılar və mütəxəssislər tərəfindən yetərincə maraqla izlənildi. Məlum olduğu kimi, atletikanın bu növü idmançılardan sürət, texnika, cəldlik kimi keyfiyyətlərdən əlavə, şübhəsiz, kollektivçilik hissi də tələb edir. Atletlər estafet çubuğunu bir-birinə ötürərək finiş xəttinə can atırdılar. Ötən il olduğu kimi, kursantlardan ibarət dördlük bu dəfə də ən yaxşı nəticə göstərdilər və birinciliyin qızıl medalına layiq görüldülər. "Şəmkir"in yetirmələri ikinci, Hərbi Hava Qüvvələrinin idmançıları isə üçüncü yerləri bölüşdürdülər. Ötənilki birincilikdə isə HHQ komandası ikinci, "Şəmkir" üçüncü olmuşdu.

### Kubok "Şəmkir"ə nəsib oldu

Komanda yarışlarında da əsas mübarizə "Şəmkir", Hərbi Hava Qüvvələri və "Bərdə" idmançıları arasında getdi. "Şəmkirlilər" Silahlı Qüvvələr birinciliklərində həmişə favorit kimi çıxış ediblər. Ötənilki atletika yarışlarında da onlar ikinci yeri tutmuşdular. Amma bu dəfə qərblilər daha yaxşı çıxış edərək komanda hesabında birinci yeri tutdular. Onlar fərdi hesabda üç qızıl, bir gümüş və bir bürünc medal əldə etdilər və rəqibləri üçün əlçatmaz oldular. Hərbi Hava Qüvvələrinin komandası iki qızıl, bir gümüş və üç bürünc medalla ikinci oldular. "Bərdə" idmançıları isə ümumi hesabda iki gümüş medalla üçüncü nəticə göstərdilər.

Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda keçirilən bağlanış mərasimində Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik Sadiq Paşayev çıxış edərək qalibləri təbrik etdi, birincilikdə komanda və atletlərin iştirakını dəyərləndirdi, onlara xidmətlərində uğurlar arzuladı. Sonra qaliblərə mükafatlar təqdim edildi. Birinciliyin kubokunu "Şəmkir" komandası qazandı.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 262
Nüsxə 4650